# ƏDƏBİYYAT QƏZETİ

ادبيات قزتی

www.edebiyyatqazeti.com

6 iyun 2008-ci il № 21 (3616) 1934-cü ildən çıxır Qiyməti 30 qəpik


*Sabir şeirdə elə bir yol və elə bir müasir mübarizə istiqaməti götürdü ki, həyatın heç bir sahəsi, məsələsi, problemi şerin təsvir dairəsindən kənarda qalmadı.*

*...Mirzə Cəlil yeni — realist nəsrimizdə nə mövqe tutursa, Sabir də yeni inqilabi-satirik şeirdə həmin mövqeyi tutur.*

*Mir Cəlal*

Dahi Azərbaycan şairi Mirzə Ələkbər Sabirin xatirəsinə ehtiramla keçirilən "Sabir Poeziya günləri"nin əsası 1962-ci ildə qoyulmuşdur. İndiyə qədər bu tədbirin keçirilməsinə xalq şairi Rəsul Rza, professor Abbas Zamanov və xalq şairi Qabil başçılıq etmişlər. İndi "Sabir Poeziya günləri" Təşkilat komitəsinin sədri şair Fikrət Sadıqdır...

İllərdən bəri ənənəvi olaraq davam etdirilən tədbir bu il də Bakı şəhərindən, dahi Sabirin heykəli önündən, onun adını daşıyan bağdan start götürdü. Poeziya bayramında iştirak edən qonaqlar

# Sabir poeziya günləri



Bakıda — Sabirin heykəli önünə tər çiçəklər qoyaraq böyük şairin xatirəsini yad etdilər.

"Sabir Poeziya günləri" mərasimini idarə edən şair Əjdər Ol yığcam giriş sözü ilə M.Ə.Sabirin şəxsiyyəti və yaradıcılığı haqqında, onun yaratdığı ictimai-siyasi satira məktəbi barədə bilgilər verərək belə qüdrətli söz sənətkarının zaman-zaman yaşayacağına əminliyini vurğuladı. Sabirin şeirlərinə istinadən onun bioqrafiyasını, yaşadığı dövrün reallıqlarını göz önünə gətirən Əjdər Ol Azərbaycan bədii təfəkkür tarixində bu dahinin öz yeri, öz dəyəri olduğunu və illər keçdikcə Sabirə daha da yaxınlaşdığımızı qeyd etdi. Millət vəkili, AMEA-nın müxbir üzvü, professor Rafael Hüseynov mərasimdə çıxış edərək bildirdi ki, Sabir həmişə diridir, müasirdir, təzədir. Millətimizin oyanış və dirçəlişinə, azadlıq və istiqlalına, ictimai-siyasi şüurunun formalaşmasına Sabir satiralarının çox ciddi təsiri olmuşdur.

Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı dahi Sabirin adını daşıyan bağın yeni dizaynda təmirini böyük şairə dövlət səviyyəsində diqqətin təzahürü hesab etdi və bildirdi ki, onun satiraları zaman hüdudları tanımayan, bütün dövrlərdə təravətini itirməyən ölməz söz inciləridir.

Sonra poeziya günlərinin iştirakçıları Şamaxıya — Sabirin vətəninə üz tutdular. Öncə dahi şairin məqbərəsi ziyarət olundu, qəbri üstünə tər çiçək dəstələri qoyuldu.

Şamaxı ictimaiyyəti bir qrup nümayəndəsinin iştirak etdiyi ziyarət mərasimində çıxış edən rayon İcra Hakimiyyəti başçısının müavini Nəsimi Abdullayev ənənəvi olaraq hər il keçirilən "Sabir Poeziya günləri"nin iştirakçılarını səmimi salamlayaraq dahi şairin xatirəsini ölməzləşdirən qonaqlara öz təşəkkürünü bildirdi. Şair Əjdər Ol məqbərə önündə çıxış edərək qüdrətli və qeyrətli söz sənətkarının dahiliyini ehtiva edən satiralarına müraciət etdi. Tanınmış şair Musa Yaqub məqbərə önündə çıxış edərək M.Ə.Sabirin bu qədər xalq ruhuna yaxınlığını, doğmalığını istedadın möcüzəsi, fitrətin qüdrəti hesab etdi. AMEA-nın müxbir üzvü, professor Teymur Kərimli Azərbaycan ədəbiyyatı tarixində M.Ə.Sabir mərhələsinə bir aydınlıq gətirdi.

Yağışlı-yağmurlu dağ havasında dahi Sabirin məqbərəsini ziyarət edən ədiblər tədbirin əsas hissəsi nəzərdə tutulan Ağsu şəhərinə yola çıxdılar. Yaşıla bürünmüş yaz havalı Ağsuyun bir guşəsində yerli əhalinin Sabir poeziyasının işığına yığışan qismi qonaqları hörmət və səmimiyyətlə qarşıladı. Poeziya bayramını giriş sözü ilə Ağsu rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev açdı. O, Bakıdan gələn tanınmış yazarları ürəkdən salamladıqdan sonra Şirvan torpağından çıxıb Azərbaycan xalqının sevimli, ölməz, əbədiyaşar şairinə çevrilən M.Ə.Sabir poeziyasının qüdrətindən və siqlətindən danışdı. Natiq illərdən bəri davam etdirilən bu tədbirin bu il Ağsuda geniş şəkildə keçirilməsini yüksək dəyərləndirdi. Sonra mərasimi idarə edən Əjdər Ol Sabir poeziyasının mənəvi-əxlaqi dəyərindən, gündəmdən düşməyən mahiyyət və aktuallığından danışdı, bugünkü müstəqilliyimizdə Sabirin də payı olduğunu vurğuladı.

# Sabir poeziya günləri




AMEA-nın müxbir üzvü, professor Teymur Kərimli öz çıxışında M.Ə.Sabirin Azərbaycan ədəbiyyatındakı yerinə və mövqeyinə elmi analiz verdi. Alim qeyd etdi ki, Sabirin poeziyası milli mentalitetimizə güzgü tutan ən yaxşı vasitədir. Onun satiralarını oxuyan hər kəs özünə kənardan baxmaq fürsətinə sahib çıxır.

Şair Musa Yaqub 49 yaşında dünyasını dəyişən, amma bu yaşa kimi öz satiraları ilə az qala Azərbaycan dünyasını dəyişən mübariz, vətənpərvər, millətpərvər bir şairin yaradıcılıq ümmanına baş vuraraq əzbər nümunələr söylədi. Sonra Musa Yaqub Sabir ruhunda yazdığı bir şerini oxudu.

Şair Ramiz Rövşən öz çıxışını Sabirin "Bənzərəm bir qocaman dağa ki, dəryada durar" misrasına istinadən qurub, ölməz şairin qürur və əzəmətindən, əyilməzlik və dönməzliyindən məhəbbətlə danışdı, bu mövqedən bir şerini oxudu. Mərasimdə iştirak edən şairlərdən Adil Cəmil, Sabir Sarvan, Ədalət Əsgəroğlu, Qoca Xalid, Gülxani Pənah, nasirlərdən xalq yazıçısı Gülhüseyn Hüseynoğlu, yazıçı-dramaturq Əli Əmirli, türkoloq Güllü Yoloğlu M.Ə.Sabirlə, onun ölməz poeziyası ilə bağlı ürək sözlərini söylədilər. Adı çəkilən şairlər də poeziya bayramında öz şeirlərini oxudular.

Tədbirdə Rusiya Yazıçılar İttifaqının katibi şair Aleksandr Akaniçeva, Moskva Yazıçılar İttifaqının katibi, tənqidçi-ədəbiyyatşünas Lola Zvonaryovaya və Amerikada yaşayan soydaşımız professor Şəhriyar Danişkərə də söz verildi. Onlar da böyük Sabirə sevgi və sayğılarını ifadə etdilər.

Xalq şairi Zəlimxan Yaqub Sabir yaradıcılığından əzbər nümunələr söyləyərək onun poeziyasını təhlilə çəkdi, dahi şairin ruhuna köklənən poeziya bayramında öz şerini də oxudu.

Tədbirdə ədəbi qiraət ustası, əməkdar incəsənət xadimi Ağalar Bayramovun, Mədəniyyət və İncəsənət Universitetinin III kurs tələbəsi Gültər Kərimovanın Sabirdən oxuduqları şeirlər, gənc muğam ifaçısı Bəxtiyar Ozanoğlunun və Şirvan Aşıqlar Birliyinin sədri Aşıq Məhəmməd Şirvaninin çıxışları iştirakçıların hərarətli alqışları ilə qarşılandı.

Respublikanın əməkdar müəllimi, Sabir ocağının gəlini Zemfira Tahirli qüdrətli şairin fitrət və qeyrətindən, istedad və cəsarətindən söz açmaqla yanaşı, ona həsr etdiyi bir şerini də oxudu. Zemfira xanım çıxışının sonunda Sabir ailəsi adından bütün iştirakçılara səmimi minnətdarlığını bildirdi.

Sonda tədbiri idarə edən Əjdər Ol "Sabir Poeziya günləri"nin ilk gününə yekun vuraraq qonaqlara və ağsululara öz təşəkkürünü bildirdi.

***

Ertəsi gün — mayın 31-də "Sabir Poeziya günləri" böyük şairin adını daşıyan mərkəzi kitabxanada davam etdirildi. Əjdər Olun qısa giriş nitqindən sonra tədbirdə iştirak edən şairlər — Yusif Həsənbəy, Musa Ələkbərli, Paşa Qəlbinur, Oqtay Rza, Tofiq Nurəli, Qəşəm Nəcəfzadə, Həzi Həsənli, Fərqanə Mehdiyeva çıxış edərək Sabir sözünün sehrindən, sadəlik, səmimiyyət və obrazlılığından konkret misallar və nümunələr əsasında danışaraq yeni şeirlərin də oxudular.

Beləcə, bu ilin "Sabir Poeziya günləri"nə yekun vuruldu. Mərasimi idarə edən Əjdər Ol gələn illərdə Sabirlə bağlı bu bayramın beynəlxalq əhəmiyyətli tədbirə çevrilməsi üçün yeni layihələrin nəzərdə tutulduğunu vurğuladı, bu işə diqqət və qayğısına görə AYB-nin sədri, xalq yazıçısı Anara öz təşəkkürünü bildirdi.

**A.CƏMİL**